# MÜSTƏQİLLİK İLLƏRİNDƏ

Melodramda həmişə iki təmayül özünü büruzə verir: biri incəsənətin demokratikləşdirilməsinə, səhnə ştamplarından əl çəkməyə cəhd göstərir, insanın real hiss və həyəcanlarının açılmasına meyl edir; digəri isə keçən sınanmış üsullardan istifadə edir, aşağı səviyyəli tamaşaçıların zövqünü oxşayır.

1990-2000- ci illərdə Azərbaycanda bu janrda dörd film çəkilib: «Mənim ağ şəhərim» (1993), «Təhminə ( 1993), «Yarasa» (1995), «Nə gözəldir bu dünya» (1999).

«Mənim ağ şəhərim» melodramı günümüzün ən aktual problemlərindən birinə – ekologiya probleminə toxunmuşdur. Ekologiya problemi həm də insan talelərinin problemidir. Çünki ekologiya tək təbiətin çirklənməsi deyil, həm də insan talelərinin məhvidir. İnsanla təbiət ayrılmazdır. Ona görə də insan ətraf mühitin çirklənməsinin qarşısını almalıdır. Filmin leytmotivi belədir.

Rejissor Mərahim Fərzəlibəyovun çəkdiyi «Mənim ağ şəhərim» (ssenari Akif Həsən oğlu, rollarda Səyavuş Aslan (zavod direktoru), Yaşar Nuri (Mirzəbala), Arif Quliyev, Həsən Məmmədov (Mahmud dayı) və s.) Filmin qəhrəmanları bəxti yatmış şəhərin (Sumqayıt) sakinləridir. Filmin mərkəzində iki sevən gəncin faciəli taleyi durur. Oğlan zəhərli sexdə işləyir, hər ay burada çalışan onlarla insan xəstəxanaya düşür. Rövşən özü xərçəngə tutulur.

Filmin qəhrəmanlarının heç biri xoşbəxt deyil. Həsən Məmmədovun qəhrəmanı Mahmud dayı şəraiti pis olan mənzildə ailəsi ilə birlikdə neçə illərdir ki, yaşayır. O da sexin zəhərli havasından əziyyət çəkənlərdəndir. Xəstə Mahmud dayı neçə illərdir ki, yeni mənzilə köçmək arzusu ilə yaşayır. Yeni mənzilə köçəndə isə amansız ölüm onun qarşısına çıxır. Mahmud dayı obrazındakı faciəvilik digər obrazlara nisbətən az olsa belə aktyorun kədərli çöhrəsi tamaşaçıların yaddaşlarında qalır.

Sumqayıtın ekoloji mühiti filmdə öz əksini tapmışdır.

«Təhminə» lirik melodramı yazıçı Anarın «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanı əsasında ekranlaşdırılmışdır. Rasim Ocaqovun çəkdiyi «Təhminə» filminin operatoru Kənan Məmmədov,



# AZƏRBAYCAN KİNOSUNDA MELODRAM JANRININ İNKİŞAFI

rəssamı Rafiz İsmayılov, bəstəkarı Emin Sabitoğlu idi. Rollarda Meral Konrat (Təhminə), Fəxrəddin Manafov (Zaur), Zərnigar Ağakişiyeva (Zaurun anası), Həsən Məmmədov (Zaurun atası, professor), Həsənağa Turabov (Nəşriyyat direktoru, Daş müəllim), Tofiq Mirzəyev (Muxtar) və s. kimi görkəmli aktyorlar çəkilmişlər.

«Təhminə» mövcud həyat tərzinə, onun mənəvi-əxlaqi ehkamlarına etiraz edən, insanın mənəvi azadlığının hər şeydən uca və dəyərli olduğunu təsdiqləyən ekran əsəridir. Film yaddaşa qayıdış formasında, Zaurun xatirələrinin tarixçəsi kimi düşünülüb. İstanbulda, professor atasının, tələbkar anasının istəyi ilə aldığı arvadı Firəngizlə bal ayı səyahəti keçirən Zaur Təhminəni yuxuda görüb qan-tər içində ayılır. Filmin müəllifləri Zaurun Təhminə, ümumiyyətlə «altıncı mərtəbə» ilə bağlı xatirələrinə belə bir mənalı açar salırlar: «Heç bir təyyarə, heç bir gəmi insanı özündən uzaqlaşdıra bilməz». Deməli filmin əsas qayəsi özünüdərk, öz «mən»indən qaçışın mümkünsüzlüyü problemidir.



*Melodram ənənəvi dramaturgiya janrıdır. Kinematoqrafiyada xüsusilə geniş yayılmışdır. Kəskin intriqalar, xeyirlə şərin açıq şəkildə üz-üzə qarşılaşdırılması, ideal qəhrəman, iztirab çəkən qadın, məkrli cani, süjetin inkişafını müəyyənləşdirən təsadüfi, qəlbi sarsıdan hadisələr, tamaşaçıların hissləri ilə oynamaq, anlaşıqlı və nəsihətamiz əxlaq dərsləri melodramın xarakterik əlamətləridir.*

Filmdə Zaurla Təhminənin uğursuz məhəbbət tarixçəsindən bəhs olunur.

1993-cü ildə Bakıda Azərbaycan filmlərinin II festivalı müsabiqəsində ən yaxşı rejissor işinə görə R.Ocaqova, ən yaxşı qadın roluna görə aktrisa Z.Ağakişiyevaya prizlər verilmişdir.

Azərbaycan kinosunun ən maraqlı və mübahisəli layihələrindən biri «Yarasa» filmidir (rej.A.Salayev, prodüser Saday Əhmədov). Filmin ssenari müəllifləri Kamal Aslanov, Ayaz Salayev, operatoru Bağır Rəfiyevdir. Baş rollarda Rasim Balayev (professor) və Mariya Lipkina (Turan) çəkiliblər.

«Yarasa» filmi (1995) 90-cı illərin əvvəllərində müstəqil kinonun ilk cücərtilərinin meydana çıxdığı dövrdə «İnterturan» konserninin sponsurluğu ilə çəkilib.

Bir neçə beynəlxalq kinofestivalın mükafatçısıdır. 1996- Anje (Fransa) Ümumavropa debüt kino festivalının baş mükafatı, İsgəndəriyyə Beynəlxalq kinofestivalında (Misir) ən yaxşı film kimi tənqidçilərin xüsusi prizini almışdır.

İlk baxışda «Yarasa» filmi klassik filmlərin məşhur epizodlarının yığınıdır. Hətta titrlərdə həmin filmlərin adları da qeyd olunur.

«Venetsiyada ölüm» Viskonti, «Mavi mələk» C.Fon Ştenberq, «Doktor Kaliqarinin kabineti» Rober Vine və b. Adətən A.Salayev «Yarasa» filmi haqqında danışarkən onun rejissorun yox, kinoşünasın filmi olduğunu mütləq qeyd edir. Bu doğrudan da belədir: «Yarasa» filmi dünya kinosunun keçdiyi ən mühüm mərhələlərin vizual, poetik əksidir. Filmin qəhrəmanı yaşlı professor kinonu çox sevir, boş vaxtının çox hissəsini qaranlıq kinozalda keçirir. Kadr dəyişir. Tamaşaçı kinoteatrın qarşısında ilk səsli filmin afişasını görür.

Və qəhrəman kor olur, çünki kinoya səs gəlib. Yalnız səsli kino kor obrazından istifadə etmək üs-

tünlüyünə malikdir. Korlar oriyentirlərini səsin köməyilə müəyyənləşdirirlər.

«Yarasa» filmi sənət və real həyatın qarşıdurması haqqındadır. Yaşlı professor özündən yaşca xeyli gənc olan kassir qızla – Turanla tanış olanda özünü ani olaraq sevimli kino qəhrəmanları ilə eyniləşdirir, tamaşaçıdan aktyora çevrilmək istəyir. Bir tamaşaçı qismində itirdiyi vaxtı süni yolla, qrim vasitəsilə qaytarmağa, cavanlaşmağa cəhd edir. Həyatın qanununu pozmağa çalışır, bu isə qeyri-mümkündür, çünki təbiətdəki bütün proseslər dönməzdir. Yalnız incəsənət belə möcüzələr etməyə qadirdir. Daim sənətlə yaşayan, gerçək həyatı tanımayan qəhrəman həyata uduzur. Sənətlə reallıq üz-üzə dayanır.

«Yarasa» filmi simvollar, anlamlar toplusudur. Gür yanan ocaq, güclü təzyiqlə axan su şırnağı və qonşu otaqda sevişən Turanla gənc rəssam, ağac, güzgü, qadın, ev... Demək olar ki, hər şey – bütün jestlər, predmetlər arxetipdir.

1999-cu ildə «Azərbaycanfilm» kinostudiyası «Nə gözəldir bu dünya» filmini istehsalata buraxdı. Eldar Quliyevlə Natiq Rəsulzadənin ssenarisi əsasında çəkilən filmə Eldar Quliyev quruluş verdi.

Bugünkü həyatımızın problemlərindən bəhs edən bu film ruhi xəstələrin həyatından danışsa da əslində burada cəmiyyətimizdə baş verən eybəcərliklər, çatışmamazlıqlar acı gülüşlə tamaşaçılara çatdırılır.

Bu o dövrdür ki, ölkəmiz müstəqillik dövrü ərəfəsindədir və bundan sonra ölkədə baş verən siyasi-iqtisadi dəyişikliklər hər bir ölkə vətəndaşına təsirini göstərir. Daha çox mənfi təsirlərə məruz qalan insanlar nəyi necə edəcəklərini bilmirlər. Çünki mövcud durum hamını çaş-baş vəziyyətə salıb.

Filmin qısa sujet xətti belədir; hər tərəf dağılmaq təhlükəsini yaşamaqdadır, alver baş alıb gedir, büdcə hesabına fəaliyyət göstərən idarələr, o cümlədən Bakıda olan dəlixana dağılır. Dəlixananın baş həkimi görəndə ki, artıq xəstələri müalicə etmək üçün lazım olan dava-dərmanı almağa pul yoxdur, bu zaman işçiləri bir yerə yığaraq «artıq xəstəxanamızın əvvəlki fəaliyyəti üçün lazım olan vəsait yoxdur, buna görə də xəstələri öz evlərinə yola salın və siz özünüz də dağılışın» deyir. Ssenarinin çox dərin mənası var idi. Bu da ondan ibarət idi ki, xəstəxanada müalicə olunan ruhi xəstələr gerçəkliyə, real həyata qədəm qoyanda başa düşürlər ki, bu dünya dəlixanadan da pisdir və əsil dəlilər də elə real həyatdadır. Və buna görə də ruhi xəstələr dəlixanaya dönmüş cəmiyyətdən uzaqlaşaraq yenidən dəlixananın divarları arasına sığınmağa üstünlük verirlər. Cəmiyyətin özünü itirmək halı filmin ssenarisində öz əksini tapmışdır. Filmin ssenarisi keçid dövründə baş verən dəyişikliklərin bəzi məqamlarını bilavasitə özündə əks etdirib.

Filmdəki hadisələrlə birgə çəkiliş vaxtı da «Azərbaycanfilm» kinostudiyasının ən acınacaqlı dövrünə təsadüf edib. Belə ki, filmin çəkildiyi ildə dövlət yalnız «Nə gözəldir bu dünya» filmi üçün vəsait ayıra bilib. Vəsait çox az olub və müəlliflər belə qərara gəliblər ki, ssenaridəki bəzi epizodları çıxarsınlar. Ssenaridəki dramaturji hadisələri az pula ekranlaşdırmaq mümkün deyildi. Buna baxmayaraq çıxarılan səhnələr heç də filmin özünəməxsus ahəngini pozmayıb.

Filmin çəkilişləri bir çox yerlərdə – Bakının küçələrində, pavilyonda, hətta şəhərdəki alman kilsələrinin birində aparılıb. Küçələrdə çəkilən epizodlar əsasən ruhi xəstələrin xəstəxananı tərk etdikdən sonra fərqli məkanlara yola düşməsi zamanı lentə alınıb. Bundan başqa, baş həkimin rolunda çəkilən Yaşar Nurinin, eyni zamanda Rasim Balayevin xarici markalı maşında olan çəkilişləri küçədə lentə alınıb. Filmin başlanğıcındakı orkestrin ifasında çalınan musiqi isə canlı olaraq alman kilsəsində lentə alınıb.

Filmdə baş həkim, yəni əsas qəhrəman rolunda Yaşar Nurinin çəkilməsi bir çox tamaşaçıların təəccübünə səbəb olmuşdu. Bəlkə də tamaşaçıları təəccübləndirən o idi ki, onlar daim Yaşar Nurini komik səpkili rollarda görmüşdülər. Və komik rollar ustasının birdən-birə dramatik rolda tamaşaçının görüşünə gəlməsinə hələ filmin sınaq çəkilişi zamanı etirazlarını bildirmişdilər. Lakin Eldar Quliyev bütün bunlara baxmayaraq Yaşar Nuriyevi məhz bu rolda görmək istəmişdir.

Bugünkü həyatımızın problemlərindən bəhs edən bu film ruhi xəstələrin həyatından danışsa da, əslində burada cəmiyyətimizdə, elə ətrafımızda baş verən eybəcərliklər, çatışmazlıqlar acı gülüşlə tamaşaçılara çatdırılır.

**Şəbnəm MƏMMƏDOVA**